# TANIYIB DA BİLMƏDİKLƏRİMİZ...



"İşgüzar qadın ziyalılarımız" silsiləsindən...2025-ci ilin dekabr ayında Bakı Konqres Mərkəzində keçirilən "Bakı İƏT (İslam Əməkdaşlıq Təşkilatı) Yaradıcı Həftə 2025 Mədəniyyət və Yaradıcı Sənayelər" Forumunda müzakirə olunan mövzular mədəni irsinrəqəmsallaşdırılması, virtual muzeylər və açıq mədəni platformalar vasitəsiləbiliklərin yayılması, təhsildə süni intellektin tətbiqi, Aİ əsaslı öyrənmə sistemləri, fərdi tədris modelləri və mədəni biliklərin yeni nəsillərə çatdırılmasında onların rolu oldu. Qadın liderliyi və mədəni innovasiya: Qadın rəhbərliyində olan startap və təşəbbüslərin İslam mədəniyyəti və təhsil sahəsində yaratdığı yeniliklərə həsr olunmuşdu. Həmin müzakirələrdə maraqlı çıxışlardan biri də İCESCO-nun (İslam Dünyası Təhsil Elm və Mədəniyyət Təşkilatı) Bakı filialının direktor müavini Məryəm Qafarzadənin çıxışı oldu. O, çıxışında şərh etdiyimiz məsələlərdən ətraflı danışdı. Ümumiyyətlə, Forumda məni təəccübləndirən işgüzar, sahibkar, ziyalı xanımlarımızın ingiliscə sərbəst çıxışları oldu. Tədbirin sonunda imkan tapıb Məryəm xanımla söhbətimiz baş tutdu və ilk sualımla onu oxuculara təqdim etmək istədim: — Məryəm xanım kimdir? — Mən 1980-ci ilin iyun ayının 11-də Bakıda ziyalı ailəsində anadan olmuşam. Ailəmizdə təhsilə, elmə və mədəni dəyərlərə xüsusi önəm verilməsi mənim dünyagörüşümün və peşəkar inkişafımın formalaşmasında mühüm rol oynayıb. — Səhv etmirəmsə, ixtisasca həkim-bioloqsunuz. — Bəli, AMEA-nın Molekulyar Biologiya və Biotexnologiya İnstitutunda doktorant kimi fəaliyyət göstərirəm. Onu da qeyd etmək yerinə düşərdi ki, Məryəm Qafarzadə 2006-2020-ci illərdə dövlət qulluğunda olmuşdur. O, Azərbaycan dövlət və beynəlxalq strukturlarda geniş təcrübəyə malik olan peşəkar ictimai və dövlət xadimidir. O, təhsil, mətbuat, gənclər və idman siyasəti sahəsində fəaliyyət göstərmiş, həmçinin beynəlxalq layihələrdə fəal iştirak etmişdir. Məryəm Qafarzadə əvvəllər Gənclər və İdman Nazirliyində sektor müdiri, Mədəniyyət Nazirliyində İnformasiya və İctimaiyyətlə Əlaqələr şöbəsinin müdiri vəzifələrində də çalışmışdır. — Bildiyim kimi, Fransada da çalışmısınız... — Bəli, Fransanın Strasburq şəhərində uzun illər AŞPA-da beynəlxalq layihələr üzərində çalışmışam. Belə ki, 80-dən artıq beynəlxalq seminar və konfranslarda çıxışlarım olub. Onu da qeyd edim ki, Məryəm xanım öz dilimizlə yanaşı rus, türk, ingilis və fransız dillərini sərbəst bilir. — Ofisiniz barədə nə deyə bilərsiz? — İCESCO - İslam dünyasında mədəniyyət, elm və təhsilə həsr olunmuş, İslam Əməkdaşlıq Təşkilatının (İƏT) ixtisaslaşmış beynəlxalq qurumudur və 53 üzv ölkə ilə əməkdaşlıq edir. Bakıdakı nümayəndəlik Tehrandakı və Şarcadakı ofislərindən sonra üçüncü regional ofisdir və bunun 2025-ci ilin aprelində Bakıda rəsmi açılışı olmuşdur. Regional ofisin məhz Azərbaycanda açılması ölkəmizin həm regionda, həm də ümumilikdə, İslam dünyasında oynadığı mühüm rolunu, gücünü və böyük potensialını nümayiş etdirir. Bir azərbaycanlı olaraq Bakıda İCESCO-nun regional ofisinin açılması mənim üçün xüsusi qürur mənbəyidir. Bu, Azərbaycanın regionda və bütünlükdə İslam dünyasında artan nüfuzunun, mədəni, elmi və intellektual potensialının göstəricisidir. — Məryəm xanım, siz harada olur, olsun, Azərbaycanımızı yüksək səviyyədə təmsil edirsiniz. Sizi tanısaq da bilmədiklərimizi, qismən də olsa, öyrənə bildik. Şəxsən mən ömrüm boyu vətənimizin ziyalı, işgüzar sahibkar qadınlarının uğurları ilə fəxr etmişəm. Sizinlə də qürur duyuram. Qarşıdan gələn Yeni il münasibətilə sizi və həmkarlarınızı ürəkdən təbrik edir, 2026-cı ildə əməli fəaliyyətinizdə daha yüksək uğurlar və möhkəm can sağlığı arzulayıram. Ümidvaram ki, can sağlığı olmaqla dinc dünyamızda sizlər daha böyük işlərə, layihələrə imza atacaqsınız! — Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi müdrik siyasət nəticəsində Azərbaycanın beynəlxalq nüfuzu bu gün ən yüksək səviyyəyə çatmış, ölkəmiz müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə güclü və nüfuzlu dövlətə çevrilmişdir. Mənim üçün Azərbaycanın beynəlxalq müstəvidə təmsil etmək, onun qədim tarixi və zəngin mədəniyyətinin dünyaya təqdim etmək böyük şərəfdir. — Məryəm xanım, Forumdan əvvəl Özbəkistan səfərində oldunuz. Bu barədə nə deyə bilərsiniz? — 28 noyabr 2025-ci il mənim üçün yaddaqalan oldu. Belə ki, Özbəkistanın Daşkənd şəhərində "Mədəniyyət sahəsində təhsil" mövzusunda Beynəlxalq Regional Konfrans keçirildi. Konfrans Özbəkistanın Mədəniyyət Nazirliyi ilə birgə təşkil edilmişdi. Region ölkələri (Azərbaycan, Özbəkistan, Qazaxistan, Tacikistan və Qırğızıstan) konfransda yüksək səviyyədə iştirak etdilər. Burada Azərbaycan ən geniş tərkibdə təmsil olundu. Həmvətənlərimiz təqdimatlar və mühazirələr etməklə yanaşı Daşkənd Konservatoriyasında muğam master klasları keçirdilər. Xalq artisti Elçin Həşimov, Əməkdar artist Elnur Əhmədov və Sara Teymurova mövzuya uyğun geniş təqdimat edərək ölkəmizin təcrübəsini paylaşdılar. Onu da qeyd edim ki, Azərbaycanın Özbəkistandakı səfirliyi yanında Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Akif Marifli də dəvətimizlə konfransa qatıldı, mühüm əlaqələr yaradıldı və təcrübələr bölüşdürüldü.







***07.01.2026***

***NƏZAKƏT EMİNQIZI,***
***yazar-publisist, AYB, AJB və PEN Klubun üzvü***